## AZƏRBAYCAN RESPUBLİKASININ SEÇKİ MƏCƏLLƏSİ-ndən çıxarış

Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə, habelə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən ümumxalq səsverməsində — referendumda öz təzahürünü tapır. Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir. Bu Məcəllə Azərbaycan Respublikası parlamentinin - Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin — referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

## ÜMUMİ HİSSƏ

I bölmə
### ƏSAS ANLAYIŞLAR

İkinci fəsil

### SEÇKİ HÜQUQUNUN TƏMİNATLARI. MƏHDUDİYYƏTLƏR

**Maddə 14. Vəzifələrin uzlaşmaması**

14.1. Vəzifələrin uzlaşmaması halları Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, 85-ci, 100-cü maddələri ilə və bu Məcəllə ilə müəyyən edilir.

14.2. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə uyğun olaraq aşağıdakı şəxslər tutduqları vəzifələrə görə Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü ola bilməzlər:

14.2.1. hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə);

14.2.2. hakimlər (hakim olduqları müddətdə);

14.2.3. dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə);

14.2.4. din xadimləri (peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə).